

*Vahid MƏHƏRRƏMOV*

# Yaralanmış ömür

*(hekayə)*

Qonşumuz Murtuz dayının sağ ayağı dizdən aşağı protez olduğundan çəliklə yeriyirdi. Yerişini görəndə ona yazığım gəlirdi. Murtuz dayı çox nikbin adam idi. Elə danışıb gülürdü ki, sanki ayağı kəsilən bu deyildi. Yaşım az olanda elə bilirdim ki, qonşumuz avtomobil qəzasına düşüb. Qarabağ müharibəsində iştirak etdiyini biləndən sonra ona hörmətim daha da artdı. Murtuz dayı hələm-hələm dilinə cəbhədə olduğunu, döyüşdüyünü gətirməzdi. Tanıdığım başqa veteranlar isə məclislərdə dil boğaza qoymadan müharibədə erməniləri necə qırdıqlarından danışardılar. Qonşumuz isə belə anlarda susardı.

Hərdən Qarabağ müharibəsi veteranları məktəbimizə görüşə gəlirdilər. Bir gün direktorumuz Zemfira müəlliməyə dedim ki, qonşumuzda müharibə veteranı yaşayır, icazə versə, onu da məktəbə dəvət edərdik. Direktor etiraz eləmədi. Görüşə getməkdən söz açanda Murtuz dayı daş atıb başını tutdu: ”Neynəmişik ki, nə də danışaq. Dədə-baba yurdumuz ermənilərin tapdağındadı. Doğma ocaqlarından qaçqın düşmüş adamlar çöllərdə əsir-yesirdirlər. Torpaqlarımız azad olunmayınca danışmağa mənəvi haqqımız yoxdur.” - dedi. Nə qədər çalışsam da onu razı sala bilmədim. Veteran döyüşlər zamanı göstərdiyi igidliyə görə aldığı medalların da yaxasına taxmırdı. ”Nə qədər ki, torpaqlarımız düşmən əlindədir, mən onları sinəmə düzüb, başımı dik tutub gəzə bilmərəm” - deyirdi. Qonşumuz çox vətənpərvər, cəsur adam idi. İcazə versəydilər, elə bu vəziyyətdə də Qarabağa gedərdi.

Həmişə çalışırdım ki, Murtuz dayının döyüş yolunu öyrənib müharibə mövzusunda inşa yazanda onun dediklərindən istifadə edim. Ha qılığına girsəm də danışmaq istəmirdi. Sağ olsun, bir gün necə oldusa sözümü yerə salmadı. Öyrəndim ki, Qarabağda müharibə başlayanda Murtuz dayı toxuculuq fabrikində fəhlə işləyirmiş. Xocalı faciəsindən sonra evdə oturmağı qeyrətinə sığışdırmayıb, ermənilərlə vuruşmaq üçün çağırış vərəqi gözləmədən cəbhə bölgəsinə yollanıb. Elə həmin gündən də onun həyatının sakitliyi pozulub, ömür kitabının səhifələrini barıtın, güllənin istisi qarsıyıb. Murtuz dayı minaya düşüb, həkimlər bir ayağını dizdən aşağı kəsməli olublar.

- İlk günlər ixtisaslı kadrlar az olduğundan çətinlik çəkirdik, - deyə qonşumuz keçdiyi döyüş yoluna cığır açdı. - Keçmiş sovet ordusunda istehkamçı olmuşdum. Bu işdən başım yaxşı çıxdığından, məni manqa komandiri təyin etmişdilər. Bölüyümüzdə Cavid adında bir əsgər də var idi. Bu sahəni o da pis bilmirdi. Bir gün axşamtərəfi komandir Sarıllı kəndindəki neytral zonaya mina basdırmaq əmri verdi. Son vaxtlar ermənilər bu istiqamətdən sahibsiz qalmış evlərə soxularaq əşyaları oğurlayıb aparırdılar.

Yola tez çıxsaq da Sarıllıdakı postlara qaranlıq düşəndə çatdıq. İsmayıl adlı orta yaşlı kənd sakini könüllü olaraq bizə bələdçilik edəcəyinə söz verib minalanacaq sahənin erməni postlarına yaxın olduğunu dedi. Sonra xəbərdarlıq etdi ki, düşmən səs eşidən kimi bizə atəş açacaq. Döyüşə könüllü gəlmişdiksə, bizi heç nə qorxuda bilməzdi. İsmayıl kişi qabaqda, biz də arxasınca neytral zonaya çatmaq üçün Sarıllı kəndinin içərilərinə doğru getdik. Ehtiyatla tərpənirdik ki, düşmən gəlişimizi hiss etməsin. Nəhayət, minalayacağımız sahəyə çatıb işə başladıq. İlk tapşırığım olsa da həyəcanlı deyildim, əvvəllər hərdən daxilimdə gizlicə dolaşan qorxu hissi də yoxa çıxmışdı. Düşmənin keçəcəyi ehtimal olunan yerlərə mina basdırıb posta qayıtdıq. Ehtiyatlı tərpəndiyimizdən ermənilər gəlişimizdən duyuq düşmədilər. Yollar təhlükəli və uzaq olduğundan qərargaha qayıtmayıb postda qaldıq. Hər an ermənilərin hücumu gözlənilirdi.

Postdakı əsgərlərlə ordan-burdan söhbət edir, ağrı-acılarını, yaşadığımız müharibənin başımıza daha hansı faciələr gətirəcəyindən danışırdıq. Təxminən saat beş radələrində güclü partlayış dalğası yeri, göyü titrətdi. Basdırdığımız minalar bir-birinin ardınca partlayıb aləmə səs saldı. Deməli, düşmən ”tələ”yə düşmüşdü. Dayandığımız postdan həmin sahəni atəşə tutduq. Qısa atışmadan sonra araya sakitlik çökdü. Bundan istifadə edib özümüzü mina basdırdığımız əraziyə çatdırdıq. Dörd erməninin yerdə döşəli gördük. Onlar hərbi formada idilər, 40-45 yaşları olardı. Quldurlar televizor və soyuducu oğurlayıb geri qayıdarkən minaya düşmüşdülər. Köməkləşib cəsədləri çıxarmaq istəyəndə qəflətən düşmən bizi atəşə tutdu. Qanlı döyüş başlandı. Bir azdan postda dayananlar da köməyimizə gəldilər. Qarşımızda dayana bilməyən ermənilər geri çəkildilər. Araya sakitlik çökdü. Meyitləri traktora qoyub qərargaha gətirdik. Tapşırığı yerinə yetirdiyimizə görə mayor Hüseynov bizə təşəkkür etdi.

Murtuz dayı bu yerdə söhbətinə ara verib siqaret yandırdı. Boz tüstünü sinəsinə çəkib baxışlarını uzaqlara zilləyib fikrə getdi. Ötənləri xatırlayandan sonra barmağını yandıran siqaret kötüyünü bir tərəfə atıb sözünə davam elədi:

- Elə ertəsi gün xəbər verdilər ki, ermənilər Albalı kəndinə gedən yolu minalayıblar. Komandirdən tapşırıq alan kimi ora tələsdik. Gördüyümüz mənzərə çox dəhşətli idi. Belə minalarla ilk dəfəydi rastlaşırdım. Sovet ordusunda bu cür minalar yox idi. Görünür ki, bunları ermənilərə xarici ölkələrdən göndərmişdilər. Yerdə yüzə qədər mina var idi. Düşmən onları torpağa basdırmadan lazımsız dəmir parçaları kimi yolun ortasına tökmüşdülər. Əvvəlcə minaları bir kənara toplayıb yolu açdıq. Sonra onları gətirib qərargahın zirzəmisinə yığdıq.

Bir gün səhər tezdən komandir məni yanına çağırdı. Otağa girəndə içəridə gənc bir zabitin də olduğunu gördüm. Komandir bizi tanış edəndə öyrəndim ki, Həmid briqadaya təzə gəlib, peşəkar istehkamçıdır. Onunla söhbətimizi qərargahın həyətində davam etdirdik. Gənc zabitə son döyüşlərdən, həyata keçirdiyimiz uğurlu əməliyyatlardan danışdım. Yoldan yığıb gətirdiyimiz minalar barədə də ona məlumat verdim. Sonra birini gətirib leytenanta göstərdim. Zabit minanı görəndə heyrətə gəlib ”Mina partlayışa hazır vəziyyətdədir, güclü bir toxunuşdan açıla bilər. Onların zirzəmidə qalması qorxuludur, hər an partlayıb binanın külünü göyə sovurar.” - dedi.

Həmidlə birgə minaları zərərsizləşdirməyə başladıq. Günortaya yaxın işimizi yekunlaşdırdıq. İndi bu minalardan əməliyyatlar zamanı düşmənə qarşı istifadə edə bilərdik. Leytenant mənə minaaxtaran qurğu da verdi. Bundan sonra düşmən minalarını zərərsizləşdirmək daha asan olacaqdı.

Səhərə yaxın bizi ”həyəcan” siqnalı ilə ayağa qaldırdılar. Dünən basdırdığımız minaların yerini dəyişdirib döyüşçülərimizin irəli getməsi üçün keçid açmalıydıq. Cavid, İlqar, Məsim və mən birlikdə yola çıxdıq. Əraziyə çatan kimi ləngimədən əsgərlərin hücuma keçmələri üçün yol açdıq. Sonra komandir başqa sahələri də minalamaq barədə əmr verdi. Tapşırığı hava işıqlanana qədər başa çatdırmalıydıq. Əsgərlərə lazımi məsləhətlər verə-verə özüm də mina basdırırdım. Birdən İlqar ”komandir, minaya düşmüşəm” - deyib məni çağırdı. Tez özümü ona çatdırdım. İlqarın bir ayağı minanın üstündəydi. Yerindən tərpənən kimi partlayış olacaqdı. Necə olursa-olsun, ölüm təhlükəsi ilə üz-üzə qalan əsgəri xilas etməliydim. Deməli, düşmən bizdən əvvəl burada olub ərazini minalamışdı. Bu, bizim ağlımıza da gəlməzdi. On doqquz yaşı təzəcə tamam olmuş İlqarın həyatını ölümün əlindən almağa tələsirdim. Ona dedim ki, ayağını tərpətməsin, minanı zərərsizləşdirmək istəyirəm. Yolunda həyatımı təhlükəyə atdığımı hiss edən əsgər razılaşmayıb ”Komandir, özüm bu işin öhdəsindən gələrəm” - dedi. Onu sakitləşdirib işə başladım.

Həyəcandan alnımda tər damcıları yumrulanmışdı. Döyüşə gələndən ilk dəfəydi belə vəziyyətə düşürdüm. Mina açılsaydı, bizi məhv edəcəkdi. Bir az da diqqətlə baxanda gördüm ki, onu zərərsizləşdirmək mümkün deyil. Cəld tərpənib bir az uzağa tullana bilsəydik, bəlkə də sağ qalardıq. İlqara dedim ki, mən ”bir, iki, üç” - deyən kimi, tez ayağını çək, uzağa atıl, üzü üstə uzan. İşarə verən kimi ayağını minanın üstündən götürdü, ikimiz də eyni vaxtda bir az aralı tullandıq. Mən özümü İlqarın üstünə atdım ki, onu qoruyum. Yerimdən tərpənəndə ayağım sürüşdüyündən bir az ləngidim. Uzanan kimi sağ ayağımda küt ağrı hiss etdim. Əsgərlər tələsik yanıma qaçdılar. Sağ ayağımın dizdən aşağı hissəsini mina parçalamışdı. Ağrıdan dayana bilmirdim, ayağımdan qan axırdı. Döyüşçü dostlarım məni hospitala çatdırdılar. Həkimlər nə qədər calışsalar da dərdimə əlac edə bilmirdilər. Ayağım getdikcə şişirdi. Ağrıların əlindən qıvrıla-qıvrıla qalmışdım.

Bir neçə gündən sonra məni Bakıya göndərdilər. Buradakı həkimlər ayağımın kəsilməyinə qərar verdilər. Dedilər ki, bu addım atılmasa, həyatımla vidalaşmalı olacağam. Əməliyyat çox ağır keçdi. Özümə gəlib sağ ayağımı dizdən aşağı görməyəndə dünya başıma fırlandı. Neçə illər məni üstündə gəzdirən ayağımın yarısından məhrum olmuşdum. Sanki quş kimi qanadsız qalmışdım. Qismətimlə barışmaqdan başqa çarəm yox idi. Döyüş yolumun yarımçıq qalmasına da çox təəssüflənirdim.

Hospitaldan çıxandan sonra da əsgər yoldaşlarım mənə baş çəkirdilər. Həyatını xilas etdiyim İlqarın minnətdarlıq etməkdən dili ağzına sığmırdı. Elə hey deyirdi: ”Komandir, siz bilə-bilə özünüzü təhlükəyə atıb məni xilas etdiniz. Əslində yaralanmaq, ölmək mənim qismətim idi. Amma siz qorxmadan, çoxlarının ata bilmədiyi bir addımı atdınız, kişi kimi sinənizi irəli verdiniz.” Mən onunla razılaşmayıb, ”Bütün komandirlər mənim kimi hərəkət edərdi”, - dedim. İlqarın valideynləri, doğmaları da yanıma gəlirdilər. Onlar çox mehriban insanlar idilər. Yavaş-yavaş əsgər dostumun yaxınlarına, qohumlarına isinişirdim. Onun ortancıl bacısı Sona da hərdən mənə baş çəkirdi. O, çox gözəl qız idi.

Günlər arxada qaldıqca vəziyyətim yavaş-yavaş düzəlir, ağrılarım azalırdı. Protez geyinsəm də çəliyin köməkliyi ilə yavaş-yavaş addımlayırdım. Gördüyüm ilk gündən Sonadan xoşum gəlmişdi. Amma heç bilmirdim ki, qız bu vəziyyətdə mənim sevgimi qəbul edər, yoxsa yox? Ürəyimdəki sevgidən xəbərsiz olan Sona da tez-tez zəng edib məndən hal-əhval tutur, qayğılarımla maraqlanırdı. Bir dəfə də danışanda onunla görüşmək istədiyimi dedim. Etiraz eləmədi. Evimizin yaxınlığındakı parkda görüşdük. Gəzişə-gəzişə xeyli söhbət etdik. Ayrılarkən ona ürək açdım. Sona bir müddət sakitcə dayandı, lal baxışlarla məni süzdü. Sonra avtobus dayanacağına qədər yanaşı addımladıq. Ürəyim əsim-əsim əsirdi. Heç döyüşdə belə həyəcan keçirməmişdim. Avtobusa minəndə bir anlıq mənə diqqətlə baxıb astaca ”Fikirləşib sənə bir söz deyərəm” - dedi.

Döyüşçü dostumun bacısı məni çox intizarda saxlamadı. İki gün sonra yenə görüşdük. Sona ”Murtuz, səni heç görməmişdən əvvəl, adar-madar qardaşımı xilas elədiyini eşidəndə ürəyimdə sənə ”çox sağ ol” - dedim. Özümdən asılı olmadan qəlbimdə sənə sevgi yarandı. Nə gizlədim, elə ilk görüşdən səndən xoşum gəldi. Gördüm ki, mərd oğlansan. Ayağını itirməyini də özünə dərd eləmə. Əsas odur ki, cəngavər ürəyə sahibsən. Sən qardaşımın yolunda həyatını təhlükəyə qoymusan. Cəsarətinə görə ailəmiz sənə həmişə borcludur. Həyatda səninlə birgə addımlamağa razıyam. Sənin həm ayağın, həm də dayağın olacağam.” - dedi.

Əvvəl elə bildim ki, İlqar bu işə pis baxacaq. Amma belə olmadı. O, bacısının məhəbbətinə hörmətlə yanaşdı. Sona dediyi kimi də eləyir, həmişə mənə dayaq durur. Mənim kimi əlil bir veterana ailə qurduğuna görə orda-burda Sonanı qınayanlar da tapıldı. Amma ona haqq qazandıranların da sayı az olmadı. İndi özümü xoşbəxt hiss edirəm. Uşaqlarım da yavaş-yavaş böyüyürlər. Heyf ki, müharibədə şikəst olmuş bir adama ərə gələn Sona kimi cəsarətli qadınlar həyatda az-az tapılır. Kaş ki, belələrinin sayı çox olaydı...

Bu vaxt Sona xala həyətə çıxıb Murtuz dayını səsləyib dedi ki, döyüşçü yoldaşı İntiqam onu telefona çağırır. Veteran tez ayağa qalxıb çəliyinə söykənə-söykənə evə tərəf addımladı. Deyəsən, bu zəng çox vacib idi. Çünki Murtuz dayı elə tələsik gedirdi ki, sanki onu telefona yox, döyüşə çağırırdılar...